Azərbaycan Respublikası

Mədəniyyət və Turizm Nazirliyi






# ″GƏNC NƏSLƏ ÖRNƏK ÖMÜRLƏR"

## Sentyabr ayında yubileyi olan Milli Qəhrəmanlar haqqında

## BİBLİOQRAFİK İCMAL

Bakı-2016

**“Vətən yolunda şəhid olanlar ölmürlər, xalqın qəlbində, ürəyində əbədi yaşayırlar... Biz onların qəhrəmanlığı, şəhidliyi ilə fəxr edirik. Bu, bizim millətimizin iftixarıdır!”**

**Ümummilli lider Heydər Əliyev**

Azərbaycan tarixən qəhrəmanlar yurdu, igidlər məskəni olub. Neçə-neçə ərənlər yetişdirib bu müqəddəs torpaq, bu ulu diyar! Bu torpaq Babəklərin, Cavanşirlərin, Koroğluların vətənidir. Belə qəhrəmanlar keçmişdə də olub, bu gün də var, onlar sabah da doğulacaqlar! Son dövrlərin narahat dünyası, zorla cəlb edildiyimiz Qarabağ savaşı bir daha göstərdi ki, Azərbaycan indi də igidlər diyarı, qəhrəmanlar ölkəsidir. Çünki bu torpaq halal torpaqdır. Kimlərinsə əlindən alınmayıb, kimlərdənsə zəbt olunmayıb. Halal bir torpağın övladları isə qəhrəman olmaya bilməz. Hər insan da şəhid və qəhrəman ola bilməz! Qəhrəmanlar, şəhidlər Vətəni, torpağı, Milləti və Dövləti canından və ailəsindən artıq sevənlərdir. Onlar cəsarətin, hünərin , qorxmazlığın, şərəfin, namusun, qeyrətin, fədakarlığın simvollarıdır. Onlar bizim, millətimizin, dövlətimizin qüruru, iftixarıdırlar.

Biz torpaqdan boy atıb, torpaqdan ucalmışıq. Torpaq bizim anamızdır. Torpaq - beşiyimiz və məzarımızdır. Böyük türk şairi demişkən: “Torpaq - uğrunda ölən varsa, Vətəndir!” Deməli, torpağı Vətənə çevirən, onun adını al qanı ilə günəşli üfüqlərə yazan - onun övladlarıdır.

Əziz oxucular, bu günkü icmalın əsas mövzusu Vətən yolunda canından keçən bu cür qəhrəman oğullardan sentyabr ayında yubileyləri olan - Azərbaycanın Milli Qəhrəmanı Kərimov Kazımağa Mövsüm oğlu, Məmmədov Seymur Qəhrəman oğlu , Qubadov Arif Vəliş oğlu, Yusifov Zakir Tofiq oğlu və Mirələkbər Mirələsgər oğlu haqqındadır. Onlar adi insanlar deyillər. Hər birinin sinəsində Azərbaycanımıza sevgi dolu atəşin bir ürək döyünürdü. Onlar neçə dəfə ölümün üstündən keçib, düşmən üstünə yerimişdilər. Ürəklərində hələ nə qədər arzuları var idi! Onlar öz həyatlarını Vətəni, torpağı, milləti, dövləti üçün heç düşünmədən fəda edənlərdilər. Onlar ad-san, şan-şöhrət üçün vuruşmurdular, müqəddəs amal, müqəddəs vətən torpağının toxunulmazlığı uğrunda vuruşurdular.

Yaşasaydılar hərəsi öz ailəsi və yaxınları ilə bu ay ad günlərini, yubiley yaşlarını qeyd edəcəkdilər... İndi isə onları bütün Azərbaycan xalqı yad edir və müqəddəs ruhları qarşısında ehtiramla baş əyir.

## Azərbaycanın ilk Milli Qəhrəmanı Kazımağa Kərimov-65

(01.09.1951-15.06.1992)



Azərbaycanın ilk Milli Qəhrəmanı adına layiq görülən şəxs-lərdən biri olan Kazımağa Möhsün oğlu Kərimov 1951-ci il sentyabrın 1-də Qubadlı rayonunun Sarıyataq kəndində ziyalı ailəsində anadan olmuşdur. Qubadlı rayon orta məktəbini bitirdikdən sonra rayonun "Avanqard" qəzetinin mətbəəsində yığıcı işləmiş , 1970-ci ildə Azər-baycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsinə daxil olmuşdur.

Universiteti bitirdikdən sonra təyinatla "Azərbaycan məktəbi" jurnalında, sonra isə "Azərbaycan müəllimi" qəzetində çalışmışdır. Sonralar Goranboy rayon Qızılhacılı kəndində Aqrar Sənaye Bir-liyində hüquq məsləhətçisi kimi işə qəbul olunmuşdur. 1988-ci ildə vətəndaşlıq borcunu yerinə yetirmək üçün cəbhə bölgəsinə yollanmışdır. Kazımağa Kərimov 1991-ci ildə Goranboy rayonunda yaradılan könüllü özünümüdafiə batalyonlarından birinə komandir müavini təyin olunmuş və baş leytenant rütbəsi ilə doğma torpaqlarımızın müdafiəsinə qalxmışdı. İlk günlərdən bir çox mühüm hərbi əməliyyatlarda iştirak etmiş, Goranboy rayonunun Gülüstan, Qaraçinar, Manas, Şəfəq, Tapqaraqoyunlu kəndləri uğrunda gedən döyüşlərə komandanlıq etmişdir. Kazımağa Kərimov 1992-ci ilin 12-13 iyun tarixlərində Goranboy rayonunun azad olunması uğrunda həyata keçirilən döyüşdə ayağından ağır yaralanmış, lakin çox qan itirdiyindən onun həyatını xilas etmək mümkün olmamışdır. 1992- ci il iyun ayının 15-də vəfat etmişdir. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı Fərmanı ilə Kərimov Kazımağa Mövsüm oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Qızılhacılı kənd Mədəniyyət evi onun adını daşıyır. Goranboy şəhərində büstü qoyulmuşdur. Yaşasaydı bu il sentyabrın 1-də 65 yaşı tamam olacaqdı. Qəhrəman döyüşçü evli idi, bir oğlu yadigar qalıb.

## Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Seymur Qəhrəman oğlu - 45

(18.09.1971-01.04.1992)



Məmmədov Seymur Qəhrəman oğlu 18 sentyabr 1971-ci ildə Füzuli rayonunda dünyaya göz açmışdır. 1978-ci ildə 2 saylı Füzuli rayon orta məktəbinə daxil olmuş, 1988-ci ildə məktəbi bitirmişdir.

Elə həmin il Azərbaycan Politexnik İnstitutunun elektro-texnika fakültəsinə daxil olmuşdur. Təhsil almaqla yanaşı, həm də Füzuli şəhər rabitə şöbəsində işləyirdi.

1991-ci ildən isə hərbi xidmətə başlamışdır. Vladimir vilayətinin Kovrov şəhə-rində artilleriya kursu keçir və Almaniyaya göndərilir. Bir müddət sonra isə xidmətini Ukraynanın Çerniqov şəhərində davam etdirir. Hərbi xidmətdən vətənə qayıdaraq, özünümüdafiə batalyonuna yazılır.

Gedən döyüşlərdə və çətin əməliyyatlarda iştirak edir, Məlikcan kəndinin ermənilərdən təmizlənməsi uğrunda gedən qeyri-bərabər döyüşdə 1 aprel 1992-ci ildə S.Məmmədov qəhrəmancasına həlak oldu. Azərbaycan Respublikası Prezidentinin 11 avqust 1992-ci il tarixli 131 saylı fərmanı ilə Məmmədov Seymur Qəhrəman oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı"adı verilmişdir. Subay idi. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.
Təhsil aldığı orta məktəb onun adını daşıyır.

## Azərbaycanın Milli Qəhrəmanı Qubadov Arif Vəliş oğlu-50

(20.09.1966-25.09.2009) 50



Arif Vəliş oğlu Qubadov 20 sentyabr 1966-cı ildə Cəlilabad rayonunun Əliqasımlı kəndində anadan olmuşdur. 1983-cü ildə kənd orta məktəbini bitirmiş, 1984-cü ildə hərbi xidmətə çağırılmışdır. Xidmətini SSRİ-nin müxtəlif yerlərində keçmişdir. 1992-ci ildə vətənə qayıdaraq, Milli Orduda xidmət etməyə başladı. 1992-ci ildə Sədərək bölgəsi uğrunda gedən döyüşdə qəhrəmanlıq göstərmiş, düşmənin bir sıra texnikasını məhv etmişdir. 1993-cü ildə Ağdam rayonuna göndərildi. Əfətli, Yusifcanlı kəndlərinin azadlığı uğrunda mübarizədə iştirak etmişdir. 1993-cü ilin avqustunda taboru ilə Füzuli bölgəsinə yollanır. 1994-cü ildə Tərtər və Ağdərə döyüşlərində fəal iştirak etmiş, rəşadəti ilə seçilmişdir. 1996-cı ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbini bitirmişdir. 2001-ci ildə Azərbaycan Respublikası Sərhəd Qoşunları Hərbi Akademiyasına daxil olmuş, 2003-cü ildə bitirmişdir. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Qubadov Arif Vəliş oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Polkovnik - leytenant rütbəsinə yüksəlmişdir. 2009-cu il 25 sentyabrda uzun sürən xəstəlikdən vəfat etmişdir. Ailəli idi. Cəlilabad rayonunun Əliqasımlı kəndində dəfn olunmuşdur.

## Azərbaycanın Milli Qəhrəmanı Yusifov Zakir Tofiq oğlu - 60

**(29.09.1956-11.10.1992)**



29 sentyabr 1956-cı ildə Bakı şəhərində doğulmuşdur. 1974-cü ildə 194 saylı orta məktəbi bitirdikdən sonra Sasovski adına Mülki Təyyarəçilik Məktəbinə daxil olmuşdur. 1977-ci ildə təhsilini başa vuraraq, Yevlax aviadəstəsində əmək fəaliyyətinə başlamışdır. AN-2 təyyarəsinin komandiri, eskadrilya komandirinin müavini, eskadrilya komandiri, uçuşu təşkil və təminetmə müfəttişliyinin təyyarəçi-müfəttişi... Belə çətin, məsul vəzifələrdə çalışsa da ali təhsil almağı da unutmurdu. O, 1988-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin qiyabi şöbəsini bitirmişdir. Respublikada ilk hərbi vertolyot eskadrilyasının yaradılması nə qədər ağır və çətin iş olsa da, o, Azərbaycanın Milli Qəhrəmanı Yavər Əliyevlə birlikdə bu işi öz öhdəsinə götürmüşdü. Zakir Yusifov az vaxtda Mİ-24 vertolyotunu bütün incəliklərinəcən öyrən-

mişdi. Sonra döyüş tapşırıqları, Qarabağa uçuşlar... Bu uçuşlar arasında ən yadda qalanlardan biri, sözsüz ki, aprel ayının 11-də Füzuli-Xocavənd istiqamətində həyata keçirdikləri uçuş idi. Zakir Yusifov həmin gün ilk dəfə idi ki, hərbi vertolyot komandiri kimi havaya qalxmışdı. Uçuş uğurlu oldu. Onlar döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirib geri qayıtdılar. Cəsur komandir yüzdən artıq hərbi uçuş keçirərək Əsgəran, Füzuli, Xocavənd, Tərtər, Ağdərə, Şuşakənd uğrunda gedən döyüşlərdə iştirak etmiş və Azərbaycan Hərbi Aviasiyasının döyüş salnaməsinə şanlı səhifələr yazmışdır. 11 oktyabr 1992-ci il... Zakir Yusifovun son uçuşu... Səfiyan kəndində növbəti əməliyyat zamanı onun vertolyotu vuruldu. Bütün heyət həlak oldu.

Ailəli idi. İki qızı yadigar qalıb.

Azərbaycan Respublikası prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı fərmanı ilə Yusifov Zakir Tofiq oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir.

Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.

Vaxtilə oxuduğu 194 saylı orta məktəb və Bakının Nizami rayonundakı küçələrdən biri onun adını daşıyır.



## Azərbaycanın Milli Qəhrəmanı İbrahimov Mirələkbər Mirələsgər oğlu -55

(30.09.1961-05.03.1994)

30 sentyabr 1961-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının Xalisa kəndində doğulmuşdur. Birinci sinfə burada getmiş, sonra Bakı şəhərinə köçmüşlər.1978-ci ildə Bakı şəhərindəki 158 saylı orta məktəbi bitirmiş və hərbi xidmətə getmişdir. Daha sonra Bakıda 153 saylı orta məktəbdə ibtidai hərbi hazırlıq müəllimi işləmişdir. Qarabağda ermənilərin törətdikləri ağılasığmaz vəhşiliklər Mirələkbəri bərk narahat edirdi. O, könüllü olaraq cəbhəyə göndərilməsini xahiş edir. 1993-cü ildə onu yenicə yaradılmış Yasamal taboruna komandir təyin edirlər. Mirələkbər öz taboru ilə Füzuli rayonunun Kürdmahmudlu, Aşağı Seyidəhmədli kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşur. Onun son döyüü 5 mart 1994-cü ildə olur. Mənfur erməni quldurları iki kəndi işğal etdir. Əks hücuma keçən cəsur komandirin taboru kəndləri azad edir. Bu döyüşdə faşist ermənilərin gülləsinə tuş gələn Mirələkbər qəhrəmancasına şəhid olur. Evli idi, bir övladı yadigar qalıb. Bakı şəhərinin ġəhidlər xiyabanında dəfn edilmişdir. Vaxtilə dərs dediyi 153 saylı orta məktəb qəhrəmanımızın adını daşıyır.

Qədirbilən Azərbaycan xalqı öz qəhrəman övladlarını heç vaxt unutmur. Onların qəhrəmanlıq yolundan bəhs edən neçə-neçə kitablar yazılıb, sənədli filmlər çəkilib, internetdə və kütləvi informasiya vasitələrində adları ehtiramla yad olunur.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində böyük rolu olan C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının fondunda da Milli Qəhrəmanlarımız haqqında bir sıra kitablar var. Dövri mətbuatda və ardı davam edən nəşrlərdə Milli Qəhrəmanlar haqqında çıxan məqalələr kitabxana qaydasında işlənərək ənənəvi və elektron kartotekada ayrılmış "Milli Qəhrəmanlar" bölməsində yerləşdirilib. Kitabxanamızda həmçinin Milli Qəhrəmanlar haqqında stend tərtib edilib, il ərzində maraqlı və yaddaqalan tədbirlər keçirilir.

Mən bu gün Sizə kitabxanamızın fondunda olan Milli Qəhrəmanlara həsr olunmuş kitablardan bir neçəsinin icmalını təqdim edirəm:




**1.** Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları / red. N. Məmmədov [et al.] ; foto: R. Bağırov, O. Aydınoğlu. - Bakı : "Abşeron Nəşr" MMC, 2013.- 224 s. : rəngli foto ; 25 sm. - Kitab Ümummilli Liderimiz Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmişdir.

Bu kitab şəhidlik zirvəsinə ucalan, öz ölümləri ilə ölümsüzlüyə qovuşan, adlarını hərb tariximizə qızıl hərflərlə yazan, Qəhrəmanlıq salnaməsini yazaraq Qəhrəmanlıq zirvəsinə ucalan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mərdlik və şücaət göstərərək Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş 193 şəhid Milli Qəhrəman ailələri və 18 sağ Milli Qəhrəmanlarla Ümimmilli Liderimiz Heydər Əliy**ev**in görüşlərindən, onlara göstərilən diqqət və qayğıdan bəhs edilir.

2. **Əliyev, Oqtay Bəndalı oğlu**. Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları - Müqəddəs amal / O. B. Əliyev, N. O. Abbasov; red. Ə. Ə. Amaşov.- Bakı : Ərgünəş, 2015. - 360 s.




Kitabda Ümummilli Liderimiz Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ölkəmizin ərazi bütövlüyü uğrunda mərdlik və şücaət göstərərək Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş şəhid Milli Qəhrəman ailələri və yaşayan Milli Qəhrəmanlarla görüşlərində dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıdan bəhs edilir.




**3. Vüqar Əsgərov**. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı: Respublika Xatirə Kitabı Redaksiyası, 2005. -251 s.

Bu kitabın həcmi kiçik olsa da, siqləti, məna tutumu böyükdür. Burada Azərbaycanın adını ucadan-uca tutan 209 qəhrəman baş-başa verib. Hər birinin öz döyüş hünəri, rəşadəti, öz tərcümeyi-halı... Onların hamısını eyni məqsəd, eyni amal birləşdirirdi: Azərbaycanın suverenliyi, dövlətçiliyi və torpaqlarımızın bütövlüyü! Azərbaycanın Milli Qəhrəmanları barədə çox yazılıb, ekrandan, efirdən çox deyilib, ayrı-ayrı kitablar buraxılıb, sənədli filmlər çəkilib. Lakin ilk dəfədir ki, onların hamısını "bir dam altında" toplayan belə bir toplu işıq üzü görüb. Gərgin zəhmət bahasına başa gəlib bu kitab. Kitabı Qarabağ müharibəsinin iştirakçısı Vüqar Əsgərov neçə müddət respublikamızın əksər rayonlarına gedərək qəhrəmanların doğmaları, yaxınları, dostları, tanışları ilə görüşmüş və zəngin faktlar toplayaraq yazmışdır.

**4. Seyidzadə, Mirbəşir Mirsultan oğlu**. **Milli** qəhrəmanlar zirvəsi / M. M. Seyidzadə ; ön sözün müəl. Q. Ə. Paşayeva ; red. N. Vəliyev. - Bakı : CBS Polygraphic Production, 2010. - 256 s.




Kitab Azərbaycanın **Milli** Qəhrəmanlarına həsr edilmişdir. Kitabda torpaqlarımızın, dövlətçiliyimizin toxunulmazlığı, elindən-obasından didərgin salınmış yurddaşlarımızın müdafiəsi uğrunda mübarizə apararaq, misilsiz igidliklər göstərən Azərbaycanın **Milli** Qəhrəmanlarının həyat yolu, döyüş bölgələrində göstərdikləri şücaətləri işıqlandırılır.

**5. Əlamətdar və tarixi günlər təqvimi - 2016** / baş red. K.Tahirov; red. G.Səfərəliyeva; məsul katib N. Alışova; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2016.- 430 s.

Sizə təqdim etdiyimiz "Əlamətdar və tarixi günlər təqvimi" 1961-ci ildən nəşr edilir. 2005-ci ildən isə "Əlamətdar və tarixi günlər təqvimi" adı ilə nəşr olunur. Bu illər ərzində təqvim daha da təkmilləşdirilmiş, mövzu üzrə bölmələrin sayı artırılaraq həcmi genişləndirilmiş, geniş məlumat mənbəyi kimi formalaşdırılmışdır. Təqvimi nəşr etməkdə əsas məqsəd geniş oxucu kütləsinə və mütəxəssislərə respublikanın ictimai-siyasi, iqtisadi, mədəni, elmi həyatında baş verən mühüm əlamətdar hadisələri və başqa dəqiqləşdirilmiş məlumatları çatdırmaqdır. Təqvimdə son dövrlərdə cəlb olunduğumuz müharibə ilə əlaqədar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə Azərbaycanın Milli Qəhrəmanı adını alan Vətən övladları haqqında bölmə də yer alıb. Təqvimdə hər ay

yubiley yaşı olan Milli Qəhrəmanlar üçün səhifə ayrılıb və həmin səhifədə Milli Qəhrəmanın şəkli, həyatı və keçdiyi döyüş yolu və haqqında ədəbiyyat siyahısı verilir. Bu gün söhbət açdığımız Milli Qəhrəmanların da hər biri haqqında məlumatı bu kitabdan əldə edə bilərsiniz. Kitabın tam mətni google.az və anl.az saytlarında da yerləşdirilib.




6. **Azərbaycanın Milli Qəhrəmanları**: biblioqrafiya / Tərt. ed.: H. Həmidova.- Bakı, 2008.- S.112.

Sizə təqdim olunan bu biblioqrafik vəsait Vətənimizin tarixində, millətimizin ürəyində özlərinə ölməzlik abidəsi ucaldan Azərbaycanın Milli Qəhrəmanlarına həsr edilmişdir.

Biblioqrafiyada 1992-2007-ci ilin may ayına qədər kitab, məcmuə və dövri dövri mətbuat səhifələrində dərc edilmiş publisistik məqalələr və bədii ədəbiyyat nümunələri toplanmışdır. Göstərici tövsiyə xarakteri daşıyır.

Vəsaitdə materiallar Milli Qəhrəmanların soyadlarının əlifba sırası ilə verilmişdir. Əvvəlcə Milli Qəhrəman adına layiq görülmələri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, sonra onların qəhrəmanlıqlarını tərənnüm edən ədəbiyyat verilmişdir. Vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə burada 3 köməkçi göstərici: " Müəlliflərin əlifba göstəricisi", "" Sərlövhələrin əlifba göstəricisi və " Coğrafi adlar göstəricisi" verilmişdir.

Yuxarıda haqqında danışdığımız Milli Qəhrəmanların hər biri haqqında bu vəsaitdən məlumatlar əldə edə bilərsiniz.

Nəhayət çıxışımı bu fikirlərlə yekunlaşdırmaq istəyirəm. Vətən bizim varlığımız, fəxrimiz, qürurumuzdur. Vətən uğrunda, onun azadlıq və istiqlaliyyəti yolunda canını qurban verən, xalqın rifahı və xoşbəxtliyi naminə şəhid olan qəhrəmanlar isə heç vaxt unudulmur, öz ölümləri ilə ölümsüzlüyə qovuşurlar. Onlar qədirbilən xalqımızın qəlbində əbədi yaşayır, gələcək nəslə örnək kimi həmişə xatırlanır və xatırlanacaq.



**İcmalı hazırladı: İnformasiya-resurs şöbəsinin böyük kitabxanaçısı Məmmədova Tamella**

**Ünvan:**

Az 1065, Yasamal rayonu, Bakı şəhəri N.Nərimanov küç., 203

E-mail: ryl.az@mail.ru

URL: www.ryl.az

**Əlaqə telefonları:**

(+994 012) 538 02 47
538 54 57
538 93 54